# Fintrend MMC

Beynəlxalq Maliyyə Hesabatları Standartlarına
Uyğun Hazırlanmış Maliyyə Hesabatları və
**Müstəqil Auditorların Rəyi**

**31 dekabr 2022-ci il tarixində başa çatmış il üzrə**

Сканировано с CamScanner

**Fintrend MMC**

## MÜNDƏRİCAT


31 dekabr 2022-ci il tarixində başa çatmış il üzrə maliyyə hesabatlarının hazırlanması və təsdiq edilməsi ilə bağlı rəhbərliyin məsuliyyəti haqqında bəyanat 1
Müstəqil Auditorların Rəyi 2-3
Maliyyə vəziyyəti haqqında hesabat 4
Mənfəət və ya zərər və məcmu gəlirlər haqqında hesabat 5
Səhmdar kapitalında dəyişikliklər haqqinda hesabat 6
Pul vəsaitlərinin hərəkəti haqqında hesabat 7

Maliyyə hesabatları üzrə qeydlər:
1. Giriş 8
2. Şirkətin əməliyyat mühiti 8
3. Əsas uçot prinsiplərinin xülasəsi 9
4. Uçot siyasətinin tətbiqi zamanı əhəmiyyətli ehtimallar və mülahizələr 15
5. Yeni standartların və şərhlərin qəbul edilməsi 15
6. Pul vəsaitləri və onların ekvivalentləri 17
7. Müştərilərə verilmiş kreditlər və avanslar 19
8. Binalar və avadanlıqlar 20
9. Digər aktivlər 21
10. Müddətli borc öhdəlikləri 21
11. Digər öhdəliklər 21
12. Nizamnamə kapitalı 21
13. Faiz gəlirləri və xərcləri 22
14. İnzibati və digər əməliyyat xərcləri 22
15. Xarici valyuta ilə əməliyyatlar üzrə zərərlər 22
16. Mənfəət vergisi xərci 23
17. Maliyyə risklərinin idarə edilməsi 23
18. Şərti öhdəliklər 25
19. Maliyyə alətlərinin ədalətli dəyəri 25
20. Hesabat dövründən sonra baş vermiş hadisələr 26


Сканировано с CamScanner

## MALİYYƏ HESABATLARININ HAZIRLANMASI VƏ TƏSDİQ EDİLMƏSİ İLƏ BAĞLI RƏHBƏRLİYİN MƏSULİYYƏTİ HAQQINDA BƏYANAT
## 31 DEKABR 2022-Cİ İL TARİXİNDƏ BAŞA ÇATMIŞ İL ÜZRƏ

Aşağıdakı bəyanat, 2-3-cü səhifələrdə göstərilmiş audit rəyində auditorların vəzifələri haqqında müddəalarla birgə oxunmalıdır və Fintrend MMC-nin (bundan sonra "Şirkət") maliyyə hesabatları ilə əlaqədar rəhbərlik və müstəqil auditorlar arasında müvafiq vəzifə bölgüsünü əks etdirmək məqsədi daşıyır.

Şirkətin 31 dekabr 2022-ci il tarixində bitən il üzrə fəaliyyətinin nəticələrini, pul vəsaitlərinin hərəkəti və kapitalda dəyişiklikləri Maliyyə Hesabatlarının Beynəlxalq Standartlarına ("MHBS") əsasən müvafiq qaydada əks etdirən maliyyə hesabatlarının hazırlanmasına görə rəhbərlik məsuliyyət daşıyır.

Maliyyə hesabatlarını hazırlayarkən, rəhbərlik:

- Müvafiq mühasibat prinsiplərinin seçilməsi və uyğun olaraq tətbiq edilməsi;
- Məntiqli və məqsədəuyğun qərarların və təxminlərin qəbul edilməsi;
- Hər hansı əhəmiyyətli kənarlaşmaların açıqlanması və maliyyə hesabatlarında izah edilməsi şərti ilə MHBS-nın tələblərinə riayət olunması və;
- Əgər yaxın gələcəkdə, Şirkətin normal şərtlər altında fəaliyyətini davam etdirəcəyi güman edilirsə, hesabat tarixinə maliyyə hesabatlarının fəaliyyətin davamlılığı prinsipi əsasında hazırlanmasına görə məsuliyyət daşıyır.

Rəhbərlik həmçinin:

- Şirkətin daxilində səmərəli və yüksək səviyyəli daxili nəzarət sisteminin təşkili, tətbiqi və qorunması;
- Şirkətin maliyyə hesabatlarının MHBS-na uyğun olaraq hazırlanması və maliyyə vəziyyətini istənilən zaman düzgün əks etdirən mühasibat uçotu sisteminin təşkil olunması;
- Mühasibat uçotunun Azərbaycan Respublikasında qəbul edilmiş qanunvericilik və mühasibat uçotu standartlarına müvafiq qaydada aparılması;
- Mümkün imkanlardan istifadə edərək Şirkətin aktivlərinin mühafizə edilməsinin təşkil olunması və;
- Saxtakarlıq, yanlışlıq və digər qanuna uyğunsuzluq hallarının müəyyən edilməsi və qarşısının alınması üçün məsuliyyət daşıyır.

31 dekabr 2022-ci il tarixində bitən il üzrə maliyyə hesabatları Şirkətin İdarə Heyəti tərəfindən 10 Fevral 2023-cü ildə təsdiq edilmişdir.

**Direktor adından:**

**Sevinc Qəmbərova**
**Direktor**

10 Fevral 2023-cü il

Azərbaycan, Bakı

**Toğrul Yaqublu**
**Baş Mühasib**

10 Fevral 2023-cü il

Azərbaycan, Bakı



Сканировано с CamScanner

**MÜSTƏQİL AUDİTORLARIN RƏYİ**

"Fintrend" MMC-nin Direktoruna:

Biz «Fintrend» MMC-nin ("Şirkət") 31 dekabr 2022-ci il tarixinə təqdim edilən maliyyə vəziyyəti haqqında hesabatı və həmin tarixə tamamlanan il üzrə Mənfəət və ya zərər və məcmu gəlirlər haqqında hesabatı, kapitalda dəyişikliklər haqqında hesabat və pul vəsaitlərinin hərəkəti haqqında hesabatdan, eləcə də əsas uçot prinsiplərinin və digər izahedici qeydlərin xülasəsindən ibarət olan maliyyə hesabatlarının audit yoxlamasını apardıq.

*Maliyyə hesabatlarının hazırlanması üzrə rəhbərliyin məsuliyyəti*

Rəhbərlik, maliyyə hesabatlarının Maliyyə Hesabatları Beynəlxalq Standartlarına uyğun olaraq hazırlanmasına və düzgün təqdim edilməsinə və həmçinin, yanlışlıq və səhvlər, əhəmiyyətli təhriflər olmayan maliyyə hesabatlarının hazırlanaması üçün daxili nəzarət sisteminin yaradılması görə məsuliyyət daşıyır.

*Auditorların məsuliyyəti*

Bizim məsuliyyətimiz, apardığımız audit yoxlamasına əsasən hazırkı maliyyə hesabatlarına dair rəy bildirməkdən ibarətdir. Audit yoxlaması Beynəlxalq Audit Standartlarına (BAS) uyğun olaraq aparılmışdır. Həmin standartların tələbinə görə, biz etik tələblərə əməl etməli və auditi elə şəkildə planlaşdırmalı və aparmalıyıq ki, maliyyə hesabatlarında əhəmiyyətli təhriflərin mövcud olmamasına görə kifayət qədər əminlik əldə edək.

Audit yoxlamasına maliyyə hesabatlarındakı məbləğlər və açıqlamalara dair auditor sübutu əldə etmək üçün müvafiq prosedurların yerinə yetirilməsi daxildir. Seçilmiş prosedurlar auditorun mülahizəsindən, eləcə də saxtakarlıq və ya səhvlər nəticəsində maliyyə hesabatlarının əhəmiyyətli dərəcədə təhrif edilməsi risklərinin qiymətləndirilməsindən asılıdır. Həmin riskləri qiymətləndirərkən auditor Şirkətin daxili nəzarət sisteminin effektivliyinə dair rəy bildirmək üçün deyil, şəraitə görə müvafiq audit prosedurlarının işlənib hazırlanması məqsədilə Şirkət tərəfindən maliyyə hesabatlarının hazırlanması və düzgün təqdim edilməsi üçün müvafiq daxili nəzarət sistemini nəzərdən keçirir. Bundan əlavə, audit yoxlamasına mövcud uçot siyasətinin uyğunluğunun və rəhbərliyin uçot təxminlərinin əsaslandırılmasının qiymətləndirilməsi, eləcə də maliyyə hesabatlarının ümumi təqdimatının dəyərləndirilməsi daxildir.

Biz hesab edirik ki, əldə etdiyimiz auditor sübutu audit rəyimizi bildirmək üçün kifayət qədər əsas verir.

***Rəy***

Fikrimizcə, maliyyə hesabatları bütün əhəmiyyətli aspektlər baxımından «Fintrend» MMC-nin 31 dekabr 2022-ci il tarixinə maliyyə vəziyyətini və həmin tarixdə tamamlanan il üzrə maliyyə nəticələrini və pul vəsaitlərinin hərəkətini Maliyyə Hesabatlarının Beynəlxalq Standartlarına uyğun olaraq düzgün əks etdirir.

"The Vvay Partners İnternational Consulting" MMC

Bakı, Azərbaycan

10 Fevral 2023-cü il



Сканировано с CamScanner

**Fintrend MMC**
**MALİYYƏ VƏZİYYƏTİ HAQQINDA HESABAT**
**31 DEKABR 2022-Cİ İL TARİXİNƏ**
*(Azərbaycan Manatı ilə)*

| | Qeyd | 31 dekabr 2022 | 31 dekabr 2021 |
|---|---|---|---|
| **AKTİVLƏR** | | | |
| Pul vəsaitləri və onların ekvivalentləri | 6 | 32,049 | 3,516 |
| Müştərilərə verilmiş kreditlər və avanslar | 7 | 18,002,190 | 372,280 |
| Binalar, avadanlıqlar və qeyri-maddi aktivlər | 8 | 198,076 | 138,274 |
| Digər aktivlər | 9 | 622,921 | 327,610 |
| **CƏMİ AKTİVLƏR** | | **18,855,236** | **841,680** |
| **ÖHDƏLİKLƏR** | | | |
| Müddətli borc öhdəlikləri | 10 | 17,344,506 | 368,181 |
| Digər öhdəliklər | 11 | 778,811 | 379,629 |
| **CƏMİ ÖHDƏLİKLƏR** | | **18,123,317** | **747,810** |
| **KAPİTAL** | | | |
| Nizamnamə kapitalı | 12 | 525,020 | 300,020 |
| Bölüşdürülməmiş mənfəət | | 206,899 | -206,153 |
| Kapital ehtiyatları | | 0,00 | 0,00 |
| **CƏMİ KAPİTAL** | | **731,919** | **93,867** |
| **CƏMİ ÖHDƏLİKLƏR VƏ KAPİTAL** | | **18,855,236** | **841,680** |

**Direktor adından:**

**Sevinc Qəmbərova**
**Direktor**

10 Fevral 2023-cü il

Azərbaycan, Bakı

AZƏRBAYCAN RESPUBLİKASI Məhdud Məsuliyyətli Cəmiyyət FİNTREND BANK OLMAYAN KREDİT TƏŞKİLATI Limited Liability Company AZERBAIJAN REPUBLIC

**Toğrul Yaqublu**
**Baş Mühasib**

10 Fevral 2023-cü il

Azərbaycan, Bakı

8-31-ci səhifələrdəki qeydlər hazırkı maliyyə hesabatlarının tərkib hissəsidir. Müstəqil Auditor Rəyi 2-3-cü səhifələrdədir.



Сканировано с CamScanner

**Fintrend MMC**
**MƏNFƏƏT VƏ YA ZƏRƏR VƏ MƏCMU GƏLİRLƏR HAQQINDA HESABAT**
**31 DEKABR 2022-ci İL TARİXİNDƏ BAŞA ÇATMIŞ İL ÜZRƏ**
*(Azərbaycan Manatı ilə)*

| | Qeyd | 31 dekabr 2022-ci il tarixində başa çatmış il üzrə | 31 dekabr 2021-ci il tarixində başa çatmış il üzrə |
|---|---|---|---|
| Faiz gəlirləri | 13 | 1,164,586 | 123,510 |
| Faiz xərcləri | 13 | 779,061 | (30,664) |
| **Xalis faiz gəliri** | | **385,525** | **92,846** |
| Kreditlərin dəyərsizləşməsi üzrə ehtiyat ayırmaları | | (0,00) | (0,00) |
| **Kreditlər üzrə dəyərsizləşmədən sonra xalis faiz gəliri** | | **385,525** | **92,846** |
| Digər gəlirlər | | 310,041 | 70,625 |
| Xarici valyuta ilə əməliyyatlar üzrə zərərlər | 15 | (10,855) | (0,00) |
| İnzibati və digər əməliyyat xərcləri | 14 | (132,082) | (319,033) |
| Digər xərclər | | (139,577) | (3,650) |
| **Vergidən əvvəlki mənfəət** | | **413,052** | **(159,212)** |
| Mənfəət vergisi xərci | 16 | - | - |
| **İl üzrə mənfəət** | | **413,052** | **(159,212)** |
| **İl üzrə digər məcmu gəlirlər** | | **-** | **-** |
| **İl üzrə cəmi məcmu gəlirlər** | | **413,052** | **(159,212)** |

**Direktor adından:**

**Sevinc Qəmbərova**
**Direktor**

10 Fevral 2023-cü il

Azərbaycan, Bakı

**Toğrul Yaqublu**
**Baş Mühasib**

10 Fevral 2023-cü il

Azərbaycan, Bakı

8-31-ci səhifələrdəki qeydlər hazırkı maliyyə hesabatlarının tərkib hissəsidir. Müstəqil Auditor Rəyi 2-3-cü səhifələrdədir.



Сканировано с CamScanner

**Fintrend MMC**
**SƏHMDAR KAPİTALINDA DƏYİŞİKLİKLƏR HAQQINDA HESABAT**
**31 DEKABR 2022-cu İL TARİXİNDƏ BAŞA ÇATMIŞ İL ÜZRƏ**
*(Azərbaycan Manatı ilə)*

| | **Ödənilmiş Kapital** | **Bölüşdürülməmiş mənfəət / Zərər** | **Cəmi Kapital** |
|---|---|---|---|
| **1 yanvar 2022-ci ilə qalıq** | **300,020** | **(206,153)** | **93,867** |
| İlin əvvəlinə düzəliş | - | - | - |
| İl üzrə cəmi mənfəət/zərər | - | 413,052 | - |
| Elan edilmiş dividendlər | - | - | - |
| Nizamnamə kapitalına ödənişlər | 225,000 | - | - |
| **31 dekabr 2022-ci ilə qalıq** | **525,020** | **206,899** | **731,919** |

**Direktor adından:**

AZƏRBAYCAN RESPUBLİKASI Məhdud Məsuliyyətli Cəmiyyəti FİNTREND BANK OLMAYAN KREDİT TƏŞKİLATI Limited Liability Company AZERBAIJAN REPUBLIC

**Sevinc Qəmbərova**
**Direktor**

10 Fevral 2023-cü il

Azərbaycan, Bakı

**Toğrul Yaqublu**
**Baş Mühasib**

10 Fevral 2023-cü il

Azərbaycan, Bakı



Сканировано с CamScanner

**Fintrend MMC**
**PUL VƏSAİTLƏRİNİN HƏRƏKƏTİ HAQQINDA HESABAT**
**31 DEKABR 2022-cu İL TARİXİNDƏ BAŞA ÇATMIŞ İL ÜZRƏ**
*(Azərbaycan Manatı ilə)*

| | Qeyd | 31 dekabr 2022-ci il tarixində başa çatmış il üzrə | 31 dekabr 2021-cu il tarixində başa çatmış il üzrə |
|---|---|---|---|
| **ƏMƏLİYYAT FƏALİYYƏTİ ÜZRƏ PUL VƏSAİTLƏRİNİN HƏRƏKƏTİ:** | | | |
| Vergidən əvvəlki mənfəət | | **413,052** | **(159,212 )** |
| Düzəlişlər: | | | |
| Faiz yaradan aktivlər üzrə dəyərsizləşmə ehtiyatının yaradılması | | - | - |
| Digər nağd olmayan gəlirlər | | - | - |
| Köhnəlmə və amortizasiya xərcləri | | 66,198 | 77,425 |
| Binalar və avadanlıqların silinməsi | | - | - |
| Hesablanmış faizlərdə xalis dəyişikliklər | | - | - |
| Xarici valyuta ilə əməliyyatlar üzrə zərərlər | | | |
| **Əməliyyat aktiv və öhdəliklərində dəyişmələr** | | | |
| ***Əməliyyat aktivlərində (artımlar)/azalmalar:*** | | | |
| Müştərilərə verilmiş kreditlər və avanslar | | (39,705,294) | 372,284 |
| Digər aktivlər | | 22,462,781 | 327,610 |
| *Əməliyyat öhdəliklərində artımlar/(azalmalar):* | | | |
| Müddətli borc öhdəlikləri | | 17,344,506 | (236,814) |
| Digər öhdəliklər | | (73,460) | (379,610) |
| **Vergi tutulmalarından əvvəl əməliyyat fəaliyyətindən daxil olan pul vəsaitləri** | | | |
| Ödənilmiş mənfəət vergisi | | - | - |
| **Əməliyyat fəaliyyətindən daxil olan xalis pul vəsaitləri** | | - | - |
| **İNVESTİSİYA FƏALİYYƏTİ ÜZRƏ PUL VƏSAİTLƏRİNİN HƏRƏKƏTİ** | | | |
| Bina və avadanlıqların alınması ( vəya satılması) | | - | (1,464) |
| **İnvestisiya fəaliyyətində istifadə olunan xalis pul vəsaitləri** | | - | - |
| Xarici valyuta məzənnələrindəki dəyişikliklərin pul vəsaitləri və onların ekvivalentlərinə təsiri | | - | - |
| **PUL VƏSAİTLƏRİ VƏ ONLARIN EKVİVALENTLƏRİNDƏ XALİS (AZALMA)/ARTIM** | | **28,533** | **219** |
| **PUL VƏSAİTLƏRİ VƏ ONLARIN EKVİVALENTLƏRİ, ilin əvvəlinə** | 6 | **3,516** | **3,297** |
| **PUL VƏSAİTLƏRİ VƏ ONLARIN EKVİVALENTLƏRİ, ilin sonuna** | 6 | **32,049** | **3,516** |

**Direktor adından:**

**Sevinc Qambarova**
**Direktor**

10 Fevral 2023-cü il

Azərbaycan, Bakı

**Toğrul Yaqublu**
**Baş Mühasib**

10 Fevral 2023-cü il

Azərbaycan, Bakı

8-31-ci səhifələrdəki qeydlər hazırkı maliyyə hesabatlarının tərkib hissəsidir. Müstəqil Auditor Rəyi 2-3-cü səhifələrdədir.



Сканировано с CamScanner

## 1. GİRİŞ

Hazırkı maliyyə hesabatları 31 dekabr 2022-ci il tarixində tamamlanan il üzrə Beynəlxalq Maliyyə Hesabatları Standartlarına uyğun olaraq Fintrend MMC ("Şirkət") üçün tərtib edilmişdir.

Şirkət Azərbaycan Respublikasında qeydiyyatdan keçmişdir və fəaliyyət göstərir. Şirkət təsisçilərinin məhdud məsuliyyət daşıdığı məhdud məsuliyyətli cəmiyyətdir və Azərbaycan Respublikasının qanunvericiliyinə uyğun olaraq təsis edilmişdir.

***Əsas fəaliyyəti.*** Şirkətin əsas biznes fəaliyyəti mikro, kiçik və orta sahibkarlığın inkişafına dəstək verilməsi, o cümlədən Azərbaycan Respublikasında ailə və digər tipli sahibkarlıqlarda yeni məşğulluq imkanları yaradılmasından ibarətdir. Şirkət 13 İyul 2005-ci ildən Azərbaycan Respublikası Mərkəzi Bankı (ARMB) tərəfindən verilmiş lisenziya əsasında fəaliyyət göstərir.
Şirkətin Baş Ofisi Bərdə şəhərində yerləşir.

***Şirkətin Müşahidə Şurası***

| | |
|---|---|
| Kərimov Əkbər Akif oğlu | - Sədr |
| İsmayılov Emin Əbülfət oğlu | - Şuranın üzvü |
| Əliyev Sahib Rahib oğlu | - Şuranın üzvü |

Şirkətin Müşahidə Şurası hazırda hər hansı effektiv təsirə malik deyil və sadəcə Cəmiyyətin Nizamnaməsində göstərildiyi üçün hesabatlarda təqdim edilmişdir. Rəhbərliyə tövsiyyə edilir ki, kollegial idarəçilik prinsiplərinə əsaslanaraq hazırki vəziyyətə tam cavab verən İdarə Heyəti sistemindən istifadə etmək idarəçilik tələbatını tam ödədiyi üçün Müşahidə Şurasının buraxılması elan edilməli və müvafiq sənədləşmə aparılmaqla Nizamnamədən çıxarılmalıdır.

***Şirkətin hüquqi ünvanı***: Bakı şəh.,Nəsimi rayonu, Səməd Vurğun küçəsi, ev 44
***Şirkətin fəaliyyət göstərdiyi yer.*** Bakı şəh.,Səbail rayonu,Bünyad Sərdarov küçəsi, ev 15

***Təqdimat valyutası.*** Bu maliyyə hesabatları Azərbaycan Manatı ilə ("AZN") ilə təqdim edilir. Azərbaycan Manatı ("AZN") Azərbaycan Respublikasının rəsmi valyutasıdır.

## 2. ŞİRKƏTİN ƏMƏLİYYAT MÜHİTİ



Сканировано с CamScanner

Azərbaycan Respublikasında inkişaf etməkdə olan bazar iqtisadiyyatına xas olan xüsusiyyətlər, o cümlədən digər ölkələrdə sərbəst dönərli olmayan valyuta, xarici valyuta əməliyyatları üzrə ciddi nəzarət və nisbətən yüksək inflyasiya səviyyəsi və iqtisadi artım mövcuddur. Azərbaycanın maliyyə sektoru ictimai fikirdəki mənfi dəyişikliklərə və iqtisadi şəraitə qarşı həssasdır. Bəzən, Azərbaycan iqtisadiyyatında likvidlik riskləri ilə əlaqədar olaraq, maliyyə sektoruna inamın azalması halları müşahidə olunur. Rəhbərlik, bütün imkanlardan istifadə etsə də respublika üzrə maliyyə sektorundakı iqtisadi tendensiyaları və aparılacaq islahatları, habelə Azərbaycanın maliyyə sektorunda likvidlik və ya inamın azalması hallarının Kredit təşkilatının maliyyə vəziyyətinə mümkün təsirini qabaqcadan proqnozlaşdırmaq iqtidarında deyil və bu iqtisadi tendensiyalar və aparılacaq islahatlar kənar amillərdən asılı olduğundan Kredit Təşkilatı onları idarə etmək imkanına malik deyil.

Azərbaycan Respublikasının vergi, valyuta və gömrük qanunvericiliyi müxtəlif şərhlərə və tez-tez baş verə bilən dəyişikliklərə məruz qalır. Bundan əlavə, Azərbaycan Respublikasında fəaliyyət göstərən təşkilatların üzləşdiyi çətinliklərə müflisləşmə və iflas haqqında qanunverici bazanın təkmilləşdirilməsi zərurəti, rəsmiləşdirilmiş qeydiyyat və girovun hesabına borcların ödənilməsi prosedurlarının çatışmazlığı, eləcə də hüquqi və fiskal sistemlə bağlı digər çatışmazlıqlar daxildir. Azərbaycan Respublikasında iqtisadi inkişafın gələcək perspektivləri Hökumətin həyata keçirdiyi iqtisadi, maliyyə və pul islahatlarının effektivliyindən, eləcə də vergi, hüquq, normativ və siyasi sistemin inkişafından xeyli dərəcədə asılıdır.

## 3. ƏSAS UÇOT PRİNSİPLƏRİNİN XÜLASƏSİ

***Maliyyə hesabatlarının tərtib edilməsinin əsas prinsipləri.*** Hazırkı maliyyə hesabatları Beynəlxalq Maliyyə Hesabatı Standartlarına ("BMHS") uyğun olaraq tarixi dəyər prinsipinə əsasən hazırlanmışdır. Qeyd olunan maliyyə hesabatlarının hazırlanmasında istifadə edilən əsas uçot prinsipləri aşağıda göstərilir. Həmin uçot prinsipləri başqa hallar nəzərdə tutulmadıqda, bütün dövrlərə müvafiq şəkildə tətbiq edilmişdir.

***Fasiləsiz fəaliyyət prinsipi.*** Rəhbərlik bu maliyyə hesabatlarını fasiləsiz fəaliyyət prinsipi əsasında hazırlamışdır.

***Maliyyə alətləri - əsas qiymətləndirmə üsulları.*** Təsnifat formalarından asılı olaraq maliyyə alətləri ədalətli dəyərdə və ya amortizasiya olunmuş maya dəyərində qeydə alınır. Həmin qiymətləndirmə üsulları aşağıda əks etdirilir.

Ədalətli dəyər müstəqil şəkildə fəaliyyət göstərən yaxşı məlumatlandırılmış müstəqil tərəflər arasında əməliyyatın ümumi şərtlər əsasında həyata keçirildiyi zaman aktivin mübadilə edilə bildiyi və ya öhdəliyin yerinə yetirildiyi məbləği təşkil edir. Ədalətli dəyər fəal bazarda alınıb satılan maliyyə aktivləri üzrə cari tələb qiymətini və maliyyə öhdəlikləri üzrə cari təklif qiymətini əks etdirir. Bazar riskləri qarşılıqlı şəkildə əvəzləşdirilən aktiv və öhdəliklər ilə əlaqədar Şirkət qarşılıqlı surətdə əvəzləşdirilən risklər üzrə ədalətli dəyər göstəricilərinin müəyyən edilməsi üçün orta bazar qiymətlərindən istifadə edə bilər və xalis açıq mövqeyə müvafiq tələb və təklif qiyməti tətbiq edə bilər. Maliyyə aləti fəal bazarda o zaman sərbəst surətdə alınıb satıla bilən aktivlər kimi qəbul edilir ki, onların qiymətləri haqqında məlumat fond birjasında və ya digər maliyyə təşkilatından sərbəst və müntəzəm şəkildə əldə edilə bilsin və bu zaman həmin qiymətlər könüllü şəkildə bazar şərtləri çərçivəsində həyata keçirilən real və müntəzəm əməliyyatları əks etdirsin. Bazar qiymətləri mövcud olmayan maliyyə alətlərinin ədalətli dəyərini müəyyən etmək üçün diskont edilmiş pul vəsaitlərinin hərəkəti modeli, könüllü şəkildə həyata keçirilən ən son əməliyyatlar haqqında məlumata əsaslanan modellər kimi qiymətləndirmə üsulları, eləcə də investisiya qoyulan müəssisələr haqqında maliyyə məlumatlarının təhlili istifadə edilir. Qiymətləndirmə üsulları müşahidə edilə bilən bazar məlumatları ilə dəstəklənməyən fərziyyələrin istifadə olunmasını tələb



Сканировано с CamScanner

edə bilər. Bu fərziyyələrin hər hansı birinin mümkün alternativ variantla əvəz edilməsi nəticəsində mənfəət, gəlir, aktiv və öhdəliklərin əhəmiyyətli dərəcədə dəyişməsinə səbəb olacaq hallar barədə məlumat hazırkı maliyyə hesabatlarında açıqlanır.

Əməliyyat xərcləri əlavə xərcləri əks etdirir və birbaşa olaraq maliyyə alətinin alışı, buraxılması və ya satışı ilə əlaqəlidir. Əlavə xərclər əməliyyatın həyata keçirilmədiyi təqdirdə yaranmayan xərclərdir. Əməliyyat xərclərinə agentlərə (satış üzrə agentlər kimi fəaliyyət göstərən işçilər daxil olmaqla), məsləhətçilərə, brokerlərə və dilerlərə ödənilmiş haqq və komissiyalar, tənzimləyici orqanlar və fond birjalarına ödəmələr, eləcə də mülkiyyət hüququnun köçürülməsi üzrə vergilər və rüsumlar daxildir. Borc öhdəlikləri üzrə mükafat və ya diskontlar, maliyyələşdirmə xərcləri, daxili inzibati və ya saxlama xərcləri maliyyə xərclərinə daxil edilmir.

Amortizasiya olunmuş maya dəyəri əsas məbləğin ödənilməsi çıxılmaqla, lakin hesablanmış faizləri daxil etməklə, maliyyə aktivləri üçün isə dəyərsizləşmə zərərləri üzrə hər hansı silinməni çıxmaqla aktivlərin ilkin dəyərini əks etdirir. Hesablanmış faizlərə ilkin uçot zamanı təxirə salınmış əməliyyat xərclərinin və effektiv faiz metodundan istifadə etməklə ödəniş məbləği üzrə hər hansı mükafat və ya diskontun amortizasiyası daxildir. Hesablanmış faiz gəlirləri və faiz xərcləri, o cümlədən hesablanmış kupon gəlirləri və amortizasiya olunmuş diskont və ya mükafat (verilmə zamanı təxirə salınmış komissiyalar daxil olmaqla, əgər varsa) ayrıca göstərilmir və maliyyə vəziyyəti haqqında hesabatda müvafiq maddələrin balans dəyərinə daxil edilir.

Effektiv faiz metodu maliyyə alətinin balans dəyəri üzrə sabit faiz dərəcəsinin (effektiv faiz dərəcəsi) təmin edilməsi üçün faiz gəlirləri və ya xərclərinin müvafiq dövr ərzində uçota alınması metodudur. Effektiv faiz dərəcəsi, təxmin edilən gələcək pul ödənişlərini və ya daxilolmaları (kreditlər üzrə gələcək zərərlər xaric olmaqla) maliyyə alətinin gözlənilən fəaliyyət müddəti ərzində və ya müvafiq hallarda daha qısa müddət ərzində maliyyə alətinin xalis balans dəyərinə diskontlaşdıran dəqiq dərəcədir.

Effektiv faiz dərəcəsi maliyyə aləti üçün nəzərdə tutulan dəyişkən faiz dərəcəsi üzrə kredit spredini əks etdirən mükafatlar və ya diskont və yaxud bazar qiymətlərindən asılı olaraq müəyyən edilməyən digər dəyişkən amillər istisna olmaqla, faiz dərəcələrinin növbəti dəyişdirilmə tarixinə qədər dəyişkən faizli alətlər üzrə pul vəsaitlərinin hərəkətini diskont etmək üçün istifadə edilir. Bu cür mükafatlar və ya diskontlar maliyyə alətinin gözlənilən tədavül müddəti ərzində amortizasiya edilir. Diskont dəyərinin hesablanmasına müqavilə tərəfləri arasında ödənilmiş və ya alınmış effektiv faiz dərəcəsinin tərkib hissəsini təşkil edən bütün komissiyalar daxildir.

***Maliyyə alətlərinin ilkin uçotu***. Mənfəət və zərər vasitəsilə ədalətli dəyərlə göstərilən ticarət üçün qiymətli kağızlar, derivativlər və digər maliyyə alətləri əvvəlcə ədalətli dəyərdə qeydə alınır. Bütün digər maliyyə alətləri əməliyyat xərcləri də daxil olmaqla ədalətli dəyərdə qeydə alınır. İlkin uçot zamanı ədalətli dəyər ən yaxşı olaraq əməliyyat qiyməti ilə sübut edilir. İlkin uçot zamanı yaranan gəlir və ya zərər yalnız ədalətli dəyər ilə əməliyyat qiyməti arasında fərq olduqda qeydə alınır. Ədalətli dəyər eyni maliyyə aləti ilə aparılan digər cari bazar əməliyyatlarının müşahidəsi və yaxud həmin bazarlardan əldə edilən məlumatlara əsaslanan qiymətləndirmə üsulu ilə sübut edilir.

Qanunvericilik və ya ümumi qəbul edilmiş bazar qaydaları ilə müəyyən edilmiş vaxt çərçivəsində təchiz olunması nəzərdə tutulan maliyyə aktivlərinin bütün digər alış və satışları ("müntəzəm" alış və satışlar), Şirkətin maliyyə aktivini almaq və ya satmaq öhdəliyini qəbul etdiyi əməliyyat tarixində qeydə alınır. Alış üzrə bütün digər əməliyyatlar müəssisənin həmin maliyyə aləti üzrə müqavilə tərəfi olduqda qeydə alınır.



Сканировано с CamScanner

***Pul vəsaitləri və onların ekvivalentləri.*** Pul vəsaitləri və onların ekvivalentləri asanlıqla müəyyən nağd pul məbləğinə çevrilə bilən və dəyəri cüzi dəyişikliklərə məruz qalan maddələrdir. Overnayt depozitlər istisna olmaqla, bütün qısamüddətli Şirkətlərarası yerləşdirmələr digər Şirkətlardan alınacaq vəsaitlərə daxil edilir. Məhdudlaşdırılmış məbləğlər pul vəsaitləri və onların ekvivalentlərindən çıxarılır. Pul vəsaitləri və onların ekvivalentləri amortizasiya olunmuş maya dəyərində əks etdirilir.

***Müştərilərə verilmiş kreditlər və avanslar.*** Müştərilərə verilmiş kreditlər və avanslar təsbit edilmiş və ya müəyyən edilə bilən tarixlərdə qaytarılmaq şərtilə sərbəst surətdə alınıb satıla bilməyən qeyri-derivativ maliyyə alətləri ilə əlaqəsi olmayan debitor borclarının əldə edilməsi və ya yaradılması məqsədilə, Şirkət tərəfindən müştərilərə avans şəklində nağd pul verildiyi zaman uçota alınır. Müştərilərə verilmiş kreditlər və avanslar amortizasiya olunmuş maya dəyərində qiymətləndirilir.

***Qeyri-rezident maliyyə institutlarına vəsaitin köçürülməsi.*** Bu kateqoriyaya, likvidlik tələblərinin ödənilməsi və yaxud faiz dərəcələri, valyuta məzənnələri və ya səhmlərin qiymətinin dəyişməsinə cavab olaraq satıla bilən və qeyri-müəyyən müddətə saxlanılan qiymətli kağızlar daxildir.

Qeyri-rezident maliyyə institutu ilə həyata keçirilən yerləşdirmələr ədalətli dəyərdə icra olunur. Mövcud satış üçün borc qiymətli kağızları üzrə faiz gəlirləri effektiv faiz metodu ilə hesablanır və il üzrə mənfəət və ya zərər olaraq təsnifatlanır. Şirkətin ödəniş almaq hüququ müəyyən edildikdə satıla bilən pay alətləri üzrə dividendlər il üzrə mənfəət və ya zərər olaraq tanınır və dividendlərin alınması mümkün olur. İnvestisiyaların dəyərsizləşmədiyi və ya il üzrə mənfəət və ya zərər məcmu gəlirləri yenidən təsnif edilmədiyi hallarda ədalətli dəyərdəki dəyişikliklərin bütün elementləri digər məcmu gəlir olaraq tanınır.

Qeyri-rezident maliyyə institutu ilə Yerləşdirmə ilkin uçotundan sonra baş vermiş bir və ya bir neçə halın ("zərər halları") nəticəsində yarandığı zaman dəyərsizləşmə üzrə zərərlər il üzrə mənfəət və ya zərərdə tanınır. Onun kapitali ilə müqayisədə dəyərindəki əhəmiyyətli dərəcədə və ya uzunmüddətli tənəzzül dəyərsizləşmənin bir göstəricisidir. Dəyərsizləşmə üzrə yığılmış zərər - Alış dəyəri ilə cari ədalətli dəyər, əvvəlki dövrlərdə mənfəət və zərər hesabatında həmin aktiv üzrə dəyərsizləşmə zərər arasında fərq kimi ölçülür və digər məcmu gəlirlər il üzrə mənfəət və ya zərər hesabında təkrar təsnif edilir.

***Amortizasiya olunmuş maya dəyərində qeydə alınan maliyyə aktivlərinin dəyərsizləşməsi.*** Maliyyə aktivinin ilkin uçotundan sonra baş vermiş bir və ya bir neçə halın ("zərər halları") nəticəsində yaranmış və etibarlı şəkildə təxmin edilə bilən maliyyə aktivi və ya maliyyə aktivləri Şirkət üzrə gələcək pul vəsaitlərinin məbləğinə və ya vaxtına təsir göstərən dəyərsizləşmə üzrə zərərlər il üzrə mənfəət və zərərə aid edilir. Ayrıca qiymətləndirilən maliyyə aktivi (əhəmiyyətindən asılı olmayaraq) ilə əlaqədar dəyərsizləşmə üzrə zərərin baş verməsinə dair Şirkətdə obyektiv dəlil olmadıqda, həmin aktiv analoji kredit riskinə malik olan maliyyə aktivləri Şirkətə aid edilir və dəyərsizləşməyə görə birlikdə qiymətləndirilir. Maliyyə aktivinin dəyərsizləşməsi məsələsinə baxarkən Şirkətin nəzərə aldığı əsas amillər həmin aktivin vaxtı keçmiş statusu və hər hansı girov təminatının realizasiya oluna bilməsidir. Dəyərsizləşmə üzrə zərərin baş verməsinə dair obyektiv əlamətlərin mövcud olmasını müəyyən edən əsas meyarlar aşağıda göstərilir:

- hər hansı ödənişin gecikdirilməsi və bu zaman gecikdirilmiş ödənişin hesablaşma sistemlərindəki gecikmə ilə izah edilə bilməməsi;
- borcalanın əhəmiyyətli maliyyə çətinlikləri ilə üzləşməsi və bunun Şirkətin borcalan haqqında maliyyə məlumatları ilə təsdiqlənməsi;
- borcalanın müflisləşməsi və ya onun maliyyə strukturunun yenidən təşkil edilməsi riskinə məruz qalması;
- borcalana təsir göstərən milli və ya yerli iqtisadi şəraitin dəyişməsi nəticəsində onun ödəniş statusunda mənfi dəyişikliklərin baş verməsi; və ya
- girovun dəyərinin bazar şərtlərinin pisləşməsi nəticəsində əhəmiyyətli dərəcədə aşağı düşməsi.



Сканировано с CamScanner

Aktivlər üçün dəyərsizləşmə üzrə zərərlərin kollektiv şəkildə qiymətləndirilməsi məqsədilə maliyyə aktivləri analoji kredit risk xüsusiyyətlərinə əsasən qeydə alınır. Həmin xüsusiyyətlər qiymətləndirilən aktivlərin müqavilə üzrə şərtlərinə uyğun olaraq borcalanlar tərəfindən bütün məbləğlərin ödənilməsi qabiliyyətinin göstəricisi olmaqla, bu cür aktivlər Şirkət üzrə gələcək pul vəsaitləri hərəkətinin təxmin edilməsi üçün uyğundur.

Dəyərsizləşməyə qarşı məcmu şəkildə qiymətləndirilən maliyyə aktivləri Şirkətdəki pul vəsaitlərinin gələcək hərəkəti, həmin aktivlərlə bağlı müqavilə üzrə pul vəsaitlərinin hərəkətinə, keçmişdə baş vermiş zərər halları nəticəsində yaranacaq vaxtı keçmiş borcların həcminə dair rəhbərlikdə mövcud olan statistikaya və vaxtı keçmiş borcların geri qaytarılması nailiyyətinə əsasən müəyyən edilir. Keçmiş dövrlərə təsir göstərməyən cari şəraitin təsirini əks etdirmək və cari dövrdə mövcud olmayan keçmiş hadisələrin təsirini aradan qaldırmaq məqsədilə, keçmiş illərin statistikası müşahidə edilə bilən cari məlumatlara əsasən tənzimlənir.

Amortizasiya olunmuş maya dəyərində uçota alınan dəyərsizləşmiş maliyyə aktivi ilə bağlı şərtlərə yenidən baxılarsa və ya bu şərtlər borcalanın və yaxud borcverənin maliyyə vəziyyətindəki çətinliklərə görə dəyişərsə, dəyərsizləşmənin uçotu şərtlərin dəyişməsindən əvvəlki effektiv faiz dərəcəsinə əsaslanır.

Aktivin balans dəyərini effektiv faiz dərəcəsilə diskont edilmiş gələcək pul vəsaitləri hərəkətinin cari dəyərinə (kreditlər üzrə baş verməmiş gələcək zərərlər istisna olmaqla) silmək üçün aktivlər üçün dəyərsizləşmə üzrə zərərlər ehtiyat hesabında qeydə alınır. Girov qoyulmuş maliyyə aktivi üzrə təxmin edilən gələcək pul vəsaitləri hərəkətinin cari dəyərinin hesablanması girovun əldə edilməsi və satılması xərcləri çıxılmaqla, girov nəticəsində yarana bilən (girovun olub-olmaması ehtimal edildikdə) pul vəsaitlərinin hərəkətini əks etdirir.

Dəyərsizləşmə üzrə zərərin məbləği sonrakı dövrdə baş vermiş hadisəyə görə azalarsa və həmin azalma obyektiv olaraq zərərin qeydə alınmasından sonra baş vermiş hadisəyə (məsələn, borcalanın kredit reytinqinin artması kimi) aid edilərsə, əvvəl qeydə alınmış dəyərsizləşmə üzrə zərər il üzrə mənfəət və zərər hesabına yaradılmış ehtiyata düzəliş etməklə bərpa edilir.

Aktivlər qaytarıla bilmədikdə onlar, aktivin və ya onun hissəsinin bərpa olunması üçün bütün zəruri prosedurların tamamlanmasından və zərərin məbləğinin müəyyən edilməsindən sonra müvafiq zərər ehtiyatından silinir.

***Maliyyə aktivlərinin uçotdan silinməsi.*** Şirkət aşağıdakı hallarda maliyyə aktivlərini uçotdan silir: (a) aktivlər geri alındıqda və ya bu aktivlərlə əlaqədar pul vəsaitlərinin hərəkəti üzrə hüquqların müddəti başa çatdıqda və ya (b) Şirkət maliyyə aktivlərindən daxil olan pul vəsaitlərinin axını üzrə mülkiyyət hüququnu ötürdükdə və ya ötürülmə haqqında müqavilə bağladıqda və bu zaman (i) həmin aktivlərin mülkiyyət hüququ ilə əlaqədar bütün risk və faydaları əsas etibarilə başqa tərəfə ötürdükdə və ya (ii) bu aktivlərin mülkiyyət hüququ ilə əlaqədar bütün risk və faydaları əsas etibarilə ötürmədikdə və ya saxlamadıqda, lakin, həmin aktivlər üzrə nəzarət hüququnu özündə saxlamadıqda. Nəzarət qarşı tərəfin öz mülkiyyətində olan aktivi satış üzrə məhdudiyyətlər qoymadan əlaqəli olmayan üçüncü tərəfə satmaq üçün praktiki imkana malik olmadığı hallarda saxlanılır.

***Binalar və avadanlıqlar.*** Binalar və avadanlıqlar, yığılmış amortizasiyanı və lazım olduqda dəyərsizləşmə üzrə ehtiyatı çıxmaqla, ilkin dəyərdə və ya yenidən qiymətləndirilmiş dəyərdə qeydə alınır.



Сканировано с CamScanner

Binalar və avadanlıqların bütün digər növləri yığılmış amortizasiyanı və dəyərsizləşmə üzrə zərəri çıxmaqla (əgər varsa), ilkin dəyərdə qeydə alınır.

Kiçik həcmli təmir və istismar xərcləri çəkildiyi zaman xərcə silinir. Binalar və avadanlıqların əsas komponentlərinin əvəz edilməsi xərcləri kapitallaşdırılır və əvəz edilmiş hissələr balansdan silinir.

Binalar və avadanlıqlar dəyərsizləşdikdə, onlar binalar və avadanlıqların istifadəsi nəticəsində əldə edilən dəyər ilə satış xərcləri çıxılmaqla ədalətli dəyərdən daha yüksək olan dəyərə silinir. Aktivin balans dəyərindəki azalma dəyərsizləşmə məbləğinin kapitalda göstərilən əvvəlki ilin yenidən qiymətləndirmə ehtiyatından artıq olan həcmdə mənfəət və zərərə aid edilir. Aktivin istifadəsi nəticəsində əldə edilən dəyərin və ya satış xərcləri çıxılmaqla, onun ədalətli dəyərinin müəyyən edilməsi üçün istifadə edilən təxminlərdə dəyişiklik baş verdiyi təqdirdə əvvəlki dövrlərdə hər hansı aktiv üçün qeydə alınmış dəyərsizləşmə üzrə zərərlər bərpa edilir.Satışdan yaranan gəlir və zərər, gəlirin məbləği ilə balans dəyəri arasındakı fərq kimi müəyyən edilir və il üzrə mənfəət və zərərdə əks etdirilir.

***Amortizasiya.*** Əsas vəsaitlər üzrə amortizasiya azalan qalıq metoduna əsasən aşağıdakı illik amortizasiya dərəcələrini tətbiq etməklə hesablanır:

| | |
|---|---|
| Kompüter və rabitə avadanlıqları | 25% |
| Mebel, qurğular və sair | 20% |
| Nəqliyyat vasitələri | 25 % |

Aktivin artıq köhnəldiyi və istismar müddəti başa çatdığı halda, satış üzrə təxmin edilən xərclər çıxılmaqla, Şirkətin həmin aktivin satışı nəticəsində əldə edəcəyi təxmin edilən məbləğ aktivin qalıq dəyəridir. Şirkət aktivi onun fiziki istismar müddətinin sonuna qədər istifadə edəcəyini gözlədikdə, aktivin qalıq dəyəri sıfıra bərabər olur. Aktivlərin qalıq dəyərləri və faydalı xidmət müddətləri lazım olduqda hər bir hesabat dövrünün sonunda nəzərdən keçirilir və dəqiqləşdirilir.

***Qeyri-maddi aktivlər.*** Şirkətin qeyri-maddi aktivləri müəyyən faydalı xidmət müddətinə malik olmaqla əsasən kapitallaşdırılmış proqram təminatından ibarətdir.

Əldə edilmiş proqram təminatı lisenziyaları həmin proqram təminatının alınması və tətbiq edilməsi üçün çəkilmiş xərclərin əsasında kapitallaşdırılır. Şirkət tərəfindən nəzarət olunan identifikasiya edilə bilən unikal proqram təminatı ilə birbaşa əlaqəli olan tərtibat xərcləri, çəkilmiş xərclərdən artıq olan əlavə iqtisadi səmərə gətirəcəyi halda qeyri-maddi aktivlər kimi tanınır. Kapitallaşdırılmış xərclərə proqram təminatını tərtib edən işçilərə sərf olunan xərclər və ümumi təsərrüfat xərclərinin müvafiq hissəsi daxildir. Proqram təminatı ilə əlaqədar bütün digər xərclər (məs, texniki dəstək xərcləri) çəkildiyi zaman xərcə silinir. Kapitallaşdırılmış proqram təminatı təxmin edilən faydalı xidmət müddəti (10 il) ərzində düz xətt metoduna əsasən amortizasiya olunur.

***Əməliyyat lizinqi.*** Şirkət lizinqalan qismində çıxış etdikdə və lizinq obyektlərinin mülkiyyət hüququ ilə əlaqədar risk və gəlirlər lizinqverən tərəfindən Şirkətə ötürülmədikdə, əməliyyat lizinqi müqavilələri üzrə cəmi ödənişlər lizinqin müddəti ərzində düz xətt metodu ilə il üzrə mənfəət və zərərə aid edilir. Şirkət tərəfindən bağlanmış bütün əməliyyat lizinqi müqavilələri növbəti on iki aylıq dövr üçündür, və əməliyyat lizinqi müqavilələri müqavilə dövrünün sonunda yenilənir.



Сканировано с CamScanner

***Buraxılmış borc qiymətli kağızları***. Buraxılmış borc qiymətli kağızları veksellər və Şirkət tərəfindən buraxılan istiqrazlar daxildir. Buraxılmış borc qiymətli kağızları amortizasiya olunmuş maya dəyərində qeydə alınır. Şirkət buraxdığı borc qiymətli kağızlarını geri aldıqda, onlar balans hesabatı və öhdəliyin balans dəyəri ilə ödənilmiş məbləğ nəzərə gəlir və ya borc üzrə yaranan gəlirlərə daxil edilir arasındakı fərq silinir.

***Müddətli borc öhdəlikləri***. Müddətli borc öhdəliklərinə sabit ödəmə müddəti və sabit və ya dəyişkən faiz dərəcələri ilə rezident və qeyri-rezident maliyyə institutları tərəfindən verilmiş kreditlər daxildir. Müddətli borc öhdəlikləri amortizasiya olunmuş maya dəyərində qeydə alınır.

***Mənfəət vergisi.*** Mənfəət vergisi hazırkı maliyyə hesabatlarında Azərbaycan Respublikasının qüvvədə olan və ya hesabat dövrünün sonunda qüvvəyə minmiş qanunvericiliyinə uyğun olaraq göstərilmişdir. Mənfəət vergisi xərci cari və təxirə salınmış mənfəət vergisindən ibarətdir və bu və ya digər dövrdə vergi təsiri bilavasitə digər məcmu gəlirlərdə və ya kapitalda qeydə alınan əməliyyatlar istisna olmaqla, mənfəət və zərərdə qeydə alınır.

Cari mənfəət vergisi, cari və əvvəlki dövrlər üzrə vergiyə cəlb edilən mənfəət və ya zərər ilə əlaqədar vergi orqanlarına ödəniləcək və ya onlardan geri alınacaq məbləği təşkil edir. Vergiyə cəlb edilən mənfəət və ya zərər maliyyə hesabatlarının müvafiq vergi bəyannamələrinin təqdim olunmasından əvvəl təsdiqləndiyi halda təxmini göstəricilərə əsasən hesablanır. Mənfəət vergisindən başqa digər vergilər inzibati və digər əməliyyat xərcləri kimi qeydə alınır.

Təxirə salınmış mənfəət vergisi öhdəlik metodundan istifadə etməklə, aktiv və öhdəliklərin vergi bazası və maliyyə hesabatlarının hazırlanması məqsədləri üçün onların balans dəyəri arasında yaranan keçmiş illərin vergi zərəri və müvəqqəti fərqlər üçün hesablanır. İlkin uçot zamanı istisna hal olaraq, əgər əməliyyat maliyyə mənfəəti və vergiyə cəlb edilən mənfəətə təsir göstərmirsə, aktiv və öhdəliyin ilkin qeydə alınması nəticəsində yaranan müvəqqəti fərqlər üzrə təxirə salınmış vergi hesablanmır (biznes birləşməsi halları istisna olmaqla). Təxirə salınmış vergi qalıqları, qüvvədə olan və ya hesabat dövrünün sonunda qüvvəyə minmiş vergi dərəcələrinə əsasən müvəqqəti fərqlərin qaytarılacağı və ya keçmiş illərdən yığılmış vergi zərərlərinin istifadə ediləcəyi dövrdə tətbiq edilməli vergi dərəcələrindən istifadə etməklə hesablanır. Gəlirdən çıxılan müvəqqəti fərqlər üzrə təxirə salınmış vergi aktivləri və keçmiş illərin vergi zərəri o zaman hesablanır ki, bu çıxılmaların realizasiya oluna bilməsi üçün gələcəkdə kifayət qədər vergiyə cəlb ediləcək mənfəətin mövcudluğu ehtimal edilsin.

***Qeyri-müəyyən vergi mövqeləri.*** Şirkətin qeyri-müəyyən vergi mövqeləri rəhbərlik tərəfindən hər balans tarixində yenidən qiymətləndirilir. Gəlir vergisi mövqeyində qeydə alınan öhdəliklər rəhbərlik tərəfindən Mövqelərə vergi orqanları tərəfindən etiraz edildiyi halda əlavə vergi tətbiq olunması ilə nəticələnmə ehtimalı olmayan kimi müəyyən edilir. Qiymətləndirmə balans hesabatı tarixinə və sözügedən məsələyə dair qanunvericilik, digər normativ aktlar və məhkəmə qərarlarına əsasən aparılır. Cərimələr, faiz və mənfəət vergisindən başqa digər vergilər üzrə öhdəliklər balans tarixinə öhdəliklərin yerinə yetirilməsi üçün zəruri olan xərclərə dair rəhbərliyin ən yaxşı təxminləri əsasında uçota alınır.

***Gəlir və xərclərin uçotu.*** Bütün borc alətləri üzrə faiz gəlirləri və xərcləri effektiv faiz metodundan istifadə etməklə hesablama metodu ilə qeydə alınır. Bu metoda əsasən, faiz gəlirləri və xərclərinə müqavilə tərəfləri arasında ödənilmiş və ya alınmış və effektiv faiz dərəcəsinin tərkib hissəsi olan bütün komissiya və haqlar, əməliyyat xərcləri, eləcə də bütün digər mükafat və ya güzəştlər daxildir.

Effektiv faiz dərəcəsinə aid olan komissiya haqlarına maliyyə aktivinin yaradılması və ya alınması, yaxud maliyyə öhdəliyinin (məsələn, ödəmə qabiliyyətinin qiymətləndirilməsi, zəmanətlərin və ya girovun dəyərləndirilməsi və qeydə alınması, maliyyə alətinin təqdim edilməsi şərtlərinin razılaşdırılması



Сканировано с CamScanner

və sövdələşmə sənədlərinin hazırlanması haqları) buraxılması ilə əlaqədar əldə edilmiş və ya ödənilmiş komissiya haqları daxildir. Bazar faiz dərəcələri ilə kreditlərin verilməsi üzrə öhdəlik üçün Şirkət tərəfindən əldə edilmiş komissiya haqları, Şirkətin xüsusi kredit müqaviləsini imzalayacağı ehtimal edildikdə və kreditin verilməsindən sonra qısa müddət ərzində onun realizasiyasını planlaşdırmadıqda effektiv faiz dərəcəsinin tərkib hissəsi hesab edilir. Şirkət, kreditlərin verilməsi üzrə öhdəlikləri mənfəət və zərər vasitəsilə ədalətli dəyərlə qeydə alınan maliyyə öhdəlikləri kimi təsnifləşdirmir.

Kreditlərin və digər borc alətlərinin vaxtında qaytarılması ilə bağlı şübhə yarandıqda, onlar dəyərsizləşmə məbləğinin müəyyən edilməsi məqsədilə gələcək pul vəsaitləri hərəkətinin diskontlaşdırılması üçün istifadə edilən effektiv faiz dərəcəsi əsasında faiz gəlirlərini əks etdirməklə bərpa dəyərinə qədər azaldılır.

Bütün digər komissiya gəlirləri, digər gəlirlər və digər xərclər adətən göstərilməli olan ümumi xidmətlərdə faktiki göstərilmiş xidmətlərin payı kimi müəyyən edilmiş konkret əqdin tamamlanma dərəcəsindən asılı olaraq hesablama metodu ilə qeydə alınır.

***Xarici valyutanın yenidən qiymətləndirilməsi.*** Şirkətin funksional və təqdimat valyutası Azərbaycan Respublikasının milli valyutası olan Azərbaycan Manatıdır ("AZN").

Monetar aktiv və öhdəliklər, ARMB-nın müvafiq hesabat tarixinə qüvvədə olan rəsmi valyuta məzənnəsinə əsasən hər bir müəssisənin funksional valyutasına çevrilir. Xarici valyuta ilə əməliyyatların həyata keçirilməsi və ilin sonuna ARMB-nın rəsmi valyuta məzənnəsi ilə xarici valyutada ifadə olunan monetar aktiv və öhdəliklərin hər bir müəssisənin funksional valyutasına çevrilməsi nəticəsində yaranan müsbət və mənfi məzənnə fərqləri mənfəət və zərərə aid edilir. İlin sonuna qüvvədə olan valyuta məzənnəsi ilə yerli valyutaya çevrilmə qeyri-monetar maddələrə, o cümlədən pay alətlərinə tətbiq edilmir. Məzənnə dəyişikliklərinin pay qiymətli kağızlarının ədalətli dəyərinə təsiri ədalətli dəyər üzrə yenidən qiymətləndirmə nəticəsində gəlir və ya xərclərin bir hissəsi kimi əks etdirilir.

***Əvəzləşdirmə.*** Maliyyə aktiv və öhdəliklərinin əvəzləşdirilməsi və xalis məbləğin maliyyə vəziyyəti haqqında hesabata daxil edilməsi, qeydə alınmış məbləğlərin əvəzləşdirilməsi üçün qanunvericiliklə müəyyən edilmiş hüquq, eləcə də əvəzləşdirməni aparmaq və ya eyni zamanda aktivi realizasiya edərək öhdəliyi ödəmək niyyəti mövcud olduğu hallarda həyata keçirilə bilər.

***İşçilərə sərf olunan xərclər və müvafiq ayırmalar.*** Əmək haqları, məvaciblər, Azərbaycan Respublikası Dövlət Sosial Müdafiə Fonduna ödənişlər, məzuniyyət və bülletenlər üzrə illik ödənişlər, mükafatlar Şirkətin işçiləri tərəfindən müvafiq xidmətlər göstərildikdə hesablanır.

## 4. UÇOT SİYASƏTİNİN TƏTBİQİ ZAMANI ƏHƏMİYYƏTLİ EHTİMALLAR VƏ MÜLAHİZƏLƏR

Şirkət, növbəti maliyyə ili ərzində hesabatlarda əks etdirilən məbləğlərə və aktiv və öhdəliklərin balans dəyərinə təsir göstərən ehtimallar və mülahizələr irəli sürür. Həmin ehtimallar və mülahizələr müntəzəm olaraq rəhbərliyin təcrübəsinə və digər amillərə, həmçinin rəhbərliyin fikrincə mövcud şəraitə uyğun olaraq əsaslandırılmış gələcək hadisələr üzrə təxminlərə əsasən təhlil edilir. Uçot siyasətinin tətbiqi zamanı rəhbərlik həmçinin peşəkar mülahizələr və



Сканировано с CamScanner

ehtimallar irəli sürür. Maliyyə hesabatlarında əks etdirilən məbləğlərə daha çox təsir göstərən peşəkar mülahizələr və növbəti maliyyə ili ərzində aktiv və öhdəliklərin balans dəyərinə əhəmiyyətli düzəlişlərin edilməsinə səbəb olan ehtimallara aşağıdakılar daxildir:

***Kreditlər və avansların dəyərsizləşməsi üzrə zərər.*** Şirkət müntəzəm olaraq kredit portfelləri üzrə dəyərsizləşmənin mövcudluğunu müəyyən etmək üçün onu təhlil edir. Dəyərsizləşmə üzrə zərərin məcmu gəlirlər haqqında hesabatda əks etdirilməsini müəyyən edərkən, Şirkət kredit portfelində konkret bir kreditin dəyərində azalmanın müşahidə edilməsindən əvvəl kredit portfeli üzrə pul vəsaitlərinin təxmin edilən hərəkətində ölçülə bilən azalmanı əks etdirən nəzərə çarpan əlamətlərin mövcudluğunu müəyyən etmək üçün peşəkar mülahizələr irəli sürür. Bu göstəricilərə, qrupdakı borcalanların ödəniş statusunda və ya qrupdakı aktivlər üzrə öhdəliklərin yerinə yetirilməməsi ilə əlaqədar ölkə səviyyəsində və ya yerli iqtisadi şərtlərdə mənfi dəyişikliyin olduğunu əks etdirən müşahidə edilə bilən məlumatlar daxildir.

Rəhbərlik gələcək pul vəsaitləri hərəkətinin proqnozlaşdırılması üçün istifadə edilən kredit portfelindəki aktivlər ilə analoji kredit riskinə və dəyərsizləşmə üzrə obyektiv əlamətlərə malik aktivlər ilə əlaqədar əvvəlki ilin zərərləri haqqında məlumata əsaslanan təxminlər tətbiq edir.

Gələcək pul vəsaitləri hərəkətinin məbləğini və müddətini təxmin edərkən istifadə edilən metodologiya və mülahizələr, təxmini və həqiqi zərərlər arasındakı hər hansı fərqi azaltmaq məqsədilə müntəzəm olaraq nəzərdən keçirilir.

***Vergi qanunvericiliyi.*** Azərbaycanın vergi, valyuta və gömrük qanunvericiliyi müxtəlif şərhlərə məruz qalır.

***Əlaqəli tərəflərlə əməliyyatların ilkin uçotu.*** Şirkət öz fəaliyyəti gedişində əlaqəli tərəflərlə əməliyyatlar aparır. 39 saylı MUBS-na uyğun olaraq maliyyə alətləri ilkin olaraq ədalətli dəyərdə uçota alınmalıdır. Lakin, həmin əməliyyatların bazar və ya qeyri-bazar faiz dərəcələrində həyata keçirilməsini müəyyən etmək məqsədilə bu cür əməliyyatlar üçün aktiv bazar mövcud olmadıqda peşəkar mülahizələrdən istifadə etmək lazım gəlir. Mülahizələrin irəli sürülməsinin əsasını əlaqəli olmayan tərəflərlə analoji əməliyyatların qiymətinin müəyyən edilməsi və effektiv faiz dərəcəsinin təhlili təşkil edir. Əlaqəli tərəflərlə əməliyyatların şərtləri haqqında məlumat 20 saylı Qeyddə açıqlanır.

## 5. BURAXILMIŞ, LAKİN QÜVVƏYƏ MİNMƏMİŞ STANDARTLAR

Şirkətin maliyyə hesabatları buraxıldığı tarixə qədər buraxılmış, lakin qüvvəyə minməmiş standartlar aşağıda göstərilir. Şirkət bu standartlar və düzəlişlər qüvvəyə mindikdə onları tətbiq etmək niyyətindədir.

*9 saylı MHBS "Maliyyə alətləri"*

2014-cü ilin iyul ayında MUBSK 9 saylı "Maliyyə alətləri" adlı MHBS-in yekun versiyasını buraxmışdır. Bu versiya maliyyə alətləri layihəsinin bütün mərhələlərini əks etdirir və 39 saylı "Maliyyə alətləri: Tanıma və Ölçmə" adlı MUBS-u və 9 saylı MHBS-in bütün əvvəlki versiyalarını əvəz edir. Standart təsnifləşdirmə və ölçmə, dəyərsizləşmə və hedcinqin uçotu üzrə yeni tələbləri təqdim edir. 9 saylı MHBS 1 yanvar 2018-ci il tarixində və ya bu tarixdən sonra başlayan illik dövrlərə tətbiq edilir. Erkən tətbiqetməyə icazə verilir. Retrospektiv qaydada tətbiq edilməsi tələb edilir, lakin müqayisəli məlumatın təqdim edilməsi məcburi deyil. İlk dəfə tətbiq etmənin tarixi 1 fevral 2015-ci il tarixindən əvvəl olduğu halda 9 saylı MHBS-in əvvəlki (2009, 2010 və 2013-cü illərin) versiyalarının erkən tətbiqinə icazə verilir. 9 saylı MHBS-in qəbul edilməsi Şirkətin maliyyə aktivlərinin təsnifatı və ölçülməsinə təsir edəcək, lakin Bankın



Сканировано с CamScanner

maliyyə öhdəliklərinin təsnifatı və ölçülməsinə heç bir təsir göstərməyəcək. Bütün mərhələləri daxil edən yekun standart buraxılanda Şirkət bu düzəlişin təsirini digər mərhələlərin təsiri ilə birlikdə kəmiyyət baxımından müəyyən edəcəkdir.

*15 saylı MHBS "Müştərilərlə müqavilələr üzrə gəlirlər"*

15 saylı MHBS 2014-cü ilin may ayında buraxılmış və müştərilərlə müqavilələrdən irəli gələn gəlirlərə tətbiq ediləcək 5 mərhələli modeli tətbiq edir. "İcarələr" adlı 17 saylı MUBS-un əhatə dairəsində icarə müqavilələri, "Sığorta müqavilələri" adlı 4 saylı MHBS-in əhatə dairəsində sığorta müqavilələri və "Maliyyə alətləri: Tanıma və Ölçülmə" adlı 39 saylı MUBS-un (və ya "Maliyyə alətləri" adlı 9 saylı MHBS, erkən tətbiq edildikdə) əhatə dairəsində maliyyə alətləri və digər müqavilə hüquqları və öhdəliklərindən irəli gələn gəlirlər 15 saylı MHBS-in əhatə dairəsinə daxil olmur və müvafiq standartla idarə edilir.

15 saylı MHBS-ə görə gəlirlər müəssisənin müştəriyə göndərdiyi mallar və ya xidmətlər əvəzində alınması gözlənilən vəsaiti əks etdirən məbləğdə tanınır. 15 saylı MHBS-in prinsipləri gəlirlərin ölçülməsi və tanınmasına daha strukturlu yanaşmanın tətbiqini təmin edir. Gəlirlərə aid olan yeni standart bütün müəssisələrə tətbiq edilir və MHBS-in gəlirlərin tanınması üzrə bütün cari tələblərini əvəz edir. Standart 1 yanvar 2017-ci il tarixində başlayan və bu tarixdən sonrakı illik dövrlərə retrospektiv qaydada tam və ya düzəlişlər edilmiş şəkildə tətbiq edilməlidir. Erkən tətbiqetməyə icazə verilir. Standart Şirkətə tətbiq edilmir.

*16 saylı MUBS-a və 38 saylı MUBS-a düzəlişlər: Məqbul köhnəlmə və amortizasiya metodlarının aydınlaşdırılması*

Düzəlişlər 16 və 38 saylı MUBS-da gəlirlərin aktivin istifadəsi prosesində sərf edilən iqtisadi faydaların sxemini deyil, biznesin (aktivin daxil olduğu) həyata keçirilməsindən əmələ gələn iqtisadi faydaların sxemini əks etdirməsi prinsipinə aydınlıq gətirir. Nəticədə, gəlirlərə əsaslanan metod əmlak, qurğu və avadanlığın köhnəlməsi üçün istifadə edilə bilməz və yalnız çox nadir hallarda qeyri-maddi aktivlərin amortizasiyası üçün istifadə edilə bilər. Düzəlişlər 1 yanvar 2017-ci il tarixində və ya bu tarixdən sonra başlayan illik dövrlərə perspektiv qaydada tətbiq edilir. Erkən tətbiqetməyə icazə verilir. Bu düzəlişlərin Şirkətə təsir göstərməsi gözlənilmir, çünki Şirkət uzunmüddətli aktivlərinə köhnəlmə hesablamaq üçün gəlirlərə əsaslanan metoddan istifadə etmir.

## 6. PUL VƏSAİTLƏRİ VƏ ONLARIN EKVİVALENTLƏRİ

| | 31 dekabr 2022 | 31 dekabr 2021 |
|---|---|---|
| Nağd pul | - | - |
| Bank hesabları | 32,019 | 3,516 |
| **Cəmi pul vəsaitləri və onların ekvivalentləri** | **32,019** | **3,516** |

31 dekabr 2022-ci il tarixində pul vəsaitləri və onların ekvivalentlərinin kredit keyfiyyətinə görə təhlili aşağıdakı cədvəldə göstərilir:



Сканировано с CamScanner

| | Nağd pul | Banklardakı cari hesablar və overnayt depozitləri | Cəmi |
|---|---|---|---|
| *Cari və dəyərsizləşməmiş* | | | |
| Nağd pul | - | - | - |
| Azərbaycan Respublikası | - | 32,019 | **32,019** |
| **Cəmi cari və dəyərsizləşməmiş** | - | 32,019 | **32,019** |
| **Cəmi pul vəsaitləri və onların ekvivalentləri** | - | 32,019 | **32,019** |



Сканировано с CamScanner

## 7. MÜŞTƏRİLƏRƏ VERİLMİŞ KREDİTLƏRƏRİN ÖDƏNİŞ MÜDDƏTLƏRİNİN BÖLGÜSÜ

| | % | 31.12.2022 | % | 31.12.2021 |
|---|---|---|---|---|
| 0 – 30 gün | - | - | 0.15% | 540 |
| 31 – 90 gün | 1,31% | 236,383 | 6,94% | 21,820 |
| 91 – 180 gün | 0,93% | 167,411 | 3,31% | 12,340 |
| 181 – 270 gün | 2,04% | 367,751 | 4,96% | 18,480 |
| 271 – 365 gün | 3,01% | 542,530 | 4,81% | 17,900 |
| **Qısamüddətli kreditlər** | **7,30%** | **1,314,075** | **20,17%** | **75,080** |
| 1 ildən 2 ilə qədər | 0,85% | 152,265 | 19,92% | 70,440 |
| 2ildən artıq | 91,85% | 16,535,850 | 60,91% | 226,760 |
| **Uzunmüddətli kreditlər** | **92,70%** | **16,688,115** | **79,83%** | **297,200** |
| **Cəmi** | **100%** | **18,002,190** | | **372,280** |

(*) 31 Dekabr 2022 – ci il tarixinə 74 ədəd kredit qalığı qalıb;
(**) 31 Dekabr 2022 – ci il tarixinə 33 ədəd müştəri sayı təşkil edir;
(***) 31 Dekabr 2022 – ci il tarixinə 16 ədəd kredit hüquqi şəxslərə, 17 ədəd fiziki şəxslərə verilmiş kreditlərdir;
(****) 31 Dekabr 2022 – ci il tarixinə minimal kredit faiz dərəcəsi 5%, maksimal isə 20% təşkil edir;
(*****) 31 Dekabr 2022 – ci il tarixinə minimal kredit məbləği 1000 azn, maksimal isə 3,823,719 azn təşkil edir;
(******) 31 Dekabr 2022 – ci il tarixinə minimal kreditin müddəti 3 ay, maksimal isə 60 ay təşkil edir;



Сканировано с CamScanner

## 8. BİNALAR, AVADANLIQLAR VƏ QEYRİ – MADDİ ALTİVLƏR

| | Balans 01.01.2022 | Artım | Cari amortizasiya | Balans 31.12.2022 |
|---|---|---|---|---|
| **Kompyuter avadanlıqları** | 129,457 | | 50,999 | 78,458 |
| **Mebel** | 8,817 | - | 2,599 | 6,218 |
| **Qeyri – Maddi aktivlər** | 0,00 | 126,000 | 12,600 | 113,400 |
| **Cəmi:** | **138,274** | **126,000** | **66,198** | **198,076** |



Сканировано с CamScanner

## 9. DİGƏR AKTİVLƏR

| | 31.12.2022 | 31.12.2021 |
|---|---|---|
| Kreditlər üzrə hesablanmış faizlər | 585,241 | 253,034 |
| Debitor borcları | | 5,886 |
| Vergilər üzrə artıq ödəmə | 31,780 | 40,588 |
| Təxirə salınmış xərclər | - | - |
| Sair aktivlər | 5,900 | 28,102 |
| **Cəmi:** | **622,921** | **327,610** |

## 10. MÜDDƏTLİ BORC ÖHDƏLİKLƏRİ

| | 31.12.2022 | 31.12.2021 |
|---|---|---|
| Yerli banklardan və beynəlxalq maliyyə institutlarından və alınmış borc vəsaitləri | 17,344,506 | 368,181 |

## 11. DİGƏR ÖHDƏLİKLƏR

Digər öhdəliklərə aşağıdakılar daxildir:

| | 31.12.2022 | 31.12.2021 |
|---|---|---|
| Əmlak vergisi | | 6,206 |
| Ödəmə mənbəyindən tutulan vergi | | 1,568 |
| Dövlət sosial sığorta ayırmaları | 3,385 | 8,830 |
| Digər öhdəliklər | 775,426 | 363,025 |
| **Cəmi:** | **778,811** | **379,629** |

## 12. NİZAMNAMƏ KAPİTALI

Şirkətin hüquqi nizamnamə kapitalı 31 dekabr 2022-ci il tarixinə 525,020 AZN olmuşdur.

| | |
|---|---|
| **31 dekabr 2021-cı il tarixinə qalıq** | **300,020** |
| Səhmdar kapitalının artırılması/azaldılması | 225,000 |
| **31 dekabr 2022-ci il tarixinə qalıq** | **525,020** |



Сканировано с CamScanner

## 13. FAİZ GƏLİRLƏRİ VƏ XƏRCLƏRİ

| | 31 dekabr 2022-ci il tarixində başa çatmış il üzrə | 31 dekabr 2021-ci il tarixində başa çatmış il üzrə |
|---|---|---|
| **Faiz gəliri** | | |
| Müştərilərə verilmiş kreditlər və avanslar | 1,164,586 | 123,510 |
| Digər faiz gəliri | - | - |
| **Cəmi faiz gəliri** | **1,164,586** | **123,510** |
| **Faiz xərci** | | |
| Müddətli borc öhdəlikləri | (779,061) | (30,664) |
| **Cəmi faiz xərcləri** | **(779,061)** | **(30,664)** |
| **Xalis faiz gəlirləri** | **385,525** | **92,846** |

## 14. İNZİBATİ VƏ DİGƏR ƏMƏLİYYAT XƏRCLƏRİ

| | 31 dekabr 2022-ci il tarixində başa çatmış il üzrə | 31 dekabr 2021-ci il tarixində başa çatmış il üzrə |
|---|---|---|
| İşçilərə sərf edilən xərclər | 53,351 | 195,989 |
| Digər xidmət haqları | 1,000 | 13,718 |
| İcarə xərcləri | | 0,00 |
| Peşəkar xidmət haqları | | 5,403 |
| Bank xərcləri | 8,893 | 3,006 |
| Binalar və avadanlıqların köhnəlmə xərcləri | 66,198 | 77,425 |
| Ezamiyyət xərcləri | | - |
| Nəqliyyat istismar xərcləri | | 760 |
| Ofis xərcləri | | 22,732 |
| Digər xərclər | 2,640 | 0,00 |
| **Cəmi inzibati və digər əməliyyat xərcləri** | **132,082** | **319,033** |

## 15. XARİCİ VALYUTA İLƏ ƏMƏLİYYATLAR ÜZRƏ ZƏRƏRLƏR

Xarici valyuta əməliyyatları üzrə zərər aşağıdakılardan ibarətdir:

| | 31 dekabr 2022-ci il tarixində başa çatmış il üzrə | 31 dekabr 2021-ci il tarixində başa çatmış il üzrə |
|---|---|---|
| Xarici valyuta mövqeyinin yenidən qiymətləndirilməsi üzrə gəlir/(zərər) | (10,855) | - |
| **Cəmi** | **(10,855)** | **-** |



Сканировано с CamScanner

## 16. MƏNFƏƏT VERGİSİ XƏRCİ

BMHS və Azərbaycanın vergi qanunvericiliyi arasındakı fərqlər müəyyən aktiv və maliyyə hesabatlarının hazırlanması və mənfəət vergisinin hesablanması məqsədilə passivlərin balans dəyəri arasında müvəqqəti fərqlər əmələ gəlir. 31 dekabr 2022 və 31 dekabr 2021-cı il tarixlərinə müvəqqəti fərqlər aşağıdakılardan ibarətdir:

| | **31 dekabr 2022-ci il tarixində başa çatmış il üzrə** | **31 dekabr 2021-ci il tarixində başa çatmış il üzrə** |
|---|---|---|
| Vergidən əvvəlki mənfəət | **413,052** | **(159,212)** |
| Qanunvericiliklə müəyyən edilmiş vergi dərəcəsi (20%) ilə vergi | 0,00 | 0,00 |
| Daimi fərqlərin vergi təsiri | - | - |
| Realizasiyası gözlənilməyən təxirə salınmış vergi aktivi | 0,00 | 0,00 |
| **Mənfəət vergisi xərci** | | - |
| Cari mənfəət vergisi xərci | - | - |
| Təxirə salınmış gəlir vergisi (qaytarılması)/xərci | - | - |
| **Mənfəət vergisi xərci** | - | - |

## 17. MALİYYƏ RİSKLƏRİNİN İDARƏ EDİLMƏSİ

Şirkət daxilində risklərin idarə edilməsi funksiyası maliyyə riskləri, əməliyyat və hüquqi risklər ilə əlaqədar həyata keçirilir. Maliyyə riski bazar riski (valyuta riski, faiz dərəcəsi riski və digər qiymət riskləri daxil olmaqla), kredit riski və likvidlik riski daxildir. Maliyyə risklərinin idarə edilməsi funksiyasının əsas məqsədi risk limitlərinin müəyyən edilməsi və sonradan riskə məruz qalma bu limitlər çərçivəsində qalır təmin edir. Əməliyyat və hüquqi risklərin idarə edilməsində əməliyyat və hüquqi risklərinin azaldılması məqsədilə daxili qayda və prosedurlara müvafiq qaydada riayət edilməsini təmin etməkdən nəzərdə tutulub.

***Kredit riski.*** Maliyyə aləti üzrə əməliyyat aparan bir tərəf öz öhdəliyini yerinə yetirməməsi nəticəsində digər tərəfə maliyyə zərəri vurduqda, Şirkət kredit riskinə məruz qalır. Kredit riski Şirkətin qarşı tərəflərlə həyata keçirdiyi kredit və digər əməliyyatlar nəticəsində ortaya çıxır ki, bu da maliyyə aktivlərinin yaranmasına gətirib çıxarır.

Şirkətin kredit riskinə qarşı maksimum məruz qalma dərəcəsi maliyyə vəziyyəti haqqında hesabatda maliyyə aktivlərinin qalıq dəyərində əks edilib. Aktiv və öhdəliklərin mümkün qarşılıqlı əlaqəsinin potensial kredit riskinə məruz qalma dərəcəsinin azaldılmasına yönəldilmiş təsiri əhəmiyyətli deyil. Kreditin artırılması üçün zəmanət və öhdəliklər üzrə kredit riskinə maksimum məruz qalma dərəcəsi öhdəliyin məbləğidir.

Şirkətin kredit departamenti kredit qalıqlarının ödəmə müddətləri üzrə təhlil aparır və vaxtı keçmiş kreditlərə xüsusi nəzarət edir. Bununla əlaqədar olaraq, rəhbərlik kreditlərin ödəmə müddətləri və kredit riski haqqında məlumatların təqdim edilməsini məqsədəuyğun hesab edir.

Kreditin keyfiyyətini yaxşılaşdıran digər tədbirləri nəzərə almadan, 31 dekabr 2022-ci və 31 dekabr 2021-cı il tarixlərinə Şirkətin məruz qaldığı kredit riski üzrə ən əlverişsiz ssenari yuxarıdakı cədvəldə təqdim edilir. Balansdakı aktivlər üzrə yuxarıdakı cədvəldə göstərilən risklər maliyyə vəziyyəti haqqında hesabatda əks etdirilən xalis balans dəyərinə əsaslanır.

Girovun qiymətləndirilməsi müstəqil peşəkar təşkilatlar və girovun növü və verilmiş kreditin məbləğindən asılı olaraq Şirkətin peşəkar əməkdaşları tərəfindən aparılır.



Сканировано с CamScanner

***Bazar riski.*** Bank bazardakı ümumi və spesifik dəyişikliklərə məruz qalan faiz, valyuta və pay alətləri üzrə açıq mövqelər ilə əlaqədar bazar risklərinə məruz qalır. İdarə Heyəti qəbul edilə bilən risklərin səviyyəsi üzrə limitlər müəyyən edir və bu limitlərə hər gün nəzarət edir. Buna baxmayaraq, bu cür yanaşmadan istifadə edilməsi bazarda daha əhəmiyyətli dəyişikliklərin baş verdiyi halda, müəyyən edilmiş limitlərdən artıq zərərlərin yaranmasının qarşısını almır.

***Xarici valyuta riski.*** Şirkət xarici valyuta məzənnə dəyişikliyinin maliyyə vəziyyətinə və pul vəsaitləri hərəkətinin vəziyyətinə yaradacağı enib-qalxma təsirinə məruz qalır. Rəhbərlik xarici valyuta riski ilə bağlı hər bir valyuta üzrə və ümumilikdə risklərin səviyyəsi ilə əlaqədar günün sonuna, həmçinin bir gün ərzində mövqelər üçün limitlər müəyyən edir və bu limitlərə gündəlik nəzarət edir.

Şirkət spekulyativ fəaliyyət və ya hecinq məqsədləri üçün hər hansı derivativ alətlərlə əməliyyat aparmır. Bu cür alətlər Azərbaycan Respublikasında geniş istifadə olunmur.

Xarici valyuta riski ilə əlaqədar Şirkətin risk siyasətinin əsas elementi hər hansı valyuta üzrə dilinq əməliyyatlarının aparılması üçün planlaşdırılmış cəhdin olmamasıdır. Limitli açıq valyuta mövqelərinin baş verməsi yalnız fəaliyyətin normal nəticəsində ortaya çıxır. Şirkət aktiv və öhdəliklərini valyutalar üzrə uyğunlaşdırmaq üçün bütün səylərindən istifadə edir.

***Faiz dərəcəsi riski.*** Şirkət bazar faiz dərəcələrinin dəyişməsinin onun maliyyə vəziyyətinə və pul vəsaitlərinin hərəkətinə təsiri ilə əlaqədar riskə məruz qalır. Bu cür dəyişikliklər nəticəsində faiz marjaları arta bilər, lakin faiz dərəcələri üzrə gözlənilməyən dəyişikliklər baş verdiyi təqdirdə faiz marjaları həmçinin azala və ya zərərin yaranmasına səbəb ola bilər. Rəhbərlik faiz dərəcələrinin dəyişməsinin qəbul edilə bilən səviyyəsi üzrə limitlər müəyyən edir və bu limitlərə hər gün nəzarət edir. Şirkət öz maliyyə alətləri üzrə faiz dərəcələrinə nəzarət edir.

***Digər risk konsentrasiyaları.*** Rəhbərlik, verilmiş kreditlərin ümumi məbləği xalis aktivlərin 10%-dən yuxarı olan borcalanlar haqqında məlumatları əks etdirən hesabatlara əsasən kredit riski üzrə konsentrasiyaya nəzarət edir və bu cür məlumatları açıqlayır. Şirkət öz maliyyə hesabatlarında hər hansı belə konsentrasiyaları müvafiq qeydlərdə açıqlayır.

***Likvidlik riski.*** Likvidlik riski Şirkətin maliyyə öhdəliklərindən irəli gələn öhdəliklərin yerinə yetirilməsində onun çətinliklərlə üzləşəcəyi riskdir. Buraya faktiki olaraq ödəmə vaxtı çatmış maliyyə alətləri ilə üzrə maliyyə öhdəliklərini yerinə yetirmək üçün kifayət qədər vəsaitlərin mövcud olması aiddir. Likvidlik riski aktivlər üzrə əməliyyatların yerinə yetirilmə müddətinin öhdəliklər üzrə əməliyyatların ödəmə müddətləri ilə uzlaşmadığı hallarda ortaya çıxır. Aktiv və öhdəliklərin ödəmə müddətlərinin və faiz dərəcələrinin uyğunluğu və/və ya nəzarət olunan uyğunsuzluğu maliyyə təşkilatlarının idarə olunması üçün əsas amillərdir. Likvidlik risklərinin idarə edilməsi məqsədilə, Şirkət aktiv/öhdəliklərin idarə edilməsi prosesinin bir hissəsi kimi müştərilərin və bank əməliyyatları üzrə gözlənilən gələcək pul vəsaitlərinin hərəkətinə hər gün nəzarət edir.

Likvidlik risklərinin idarə edilməsi məqsədilə, Şirkət aktiv və öhdəliklərin idarə edilməsi prosesi çərçivəsində müştərilərin və bankların əməliyyatları üzrə gözlənilən gələcək pul vəsaitlərinin hərəkətinə gündəlik nəzarət edir. Şirkət, həmçinin ARMB-nin müəyyən etdiyi minimal likvidlik tələblərinə riayət etməlidir.



Сканировано с CamScanner

## 18. ŞƏRTİ ÖHDƏLİKLƏR

***Kapital məsrəfləri ilə bağlı öhdəliklər.*** 31 dekabr 2022-ci il tarixində Şirkətin binalar və avadanlıqlar, yaxud hər hansı digər maddə ilə əlaqədar olaraq müqavilə üzrə kapital məsrəfləri ilə bağlı öhdəlikləri olmamışdır.

***Əməliyyat lizinqi ilə bağlı öhdəliklər.*** Şirkət geri çağrıla bilməyən əməliyyat lizinqi razılaşmaları əsasında ofis binasını lizinqə götürür.

***Məhkəmə prosedurları.*** Vaxtaşırı olaraq və adi fəaliyyət gedişində Şirkətə qarşı irəli sürülə biləcək iddialarla əlaqədar Rəhbərlik öz təxminlərinə, daxili və peşəkarların məsləhətlərinə əsasən hesab edir ki, bu iddialarla bağlı heç bir əhəmiyyətli zərər baş verməyəcəkdir və müvafiq olaraq hazırkı maliyyə hesabatlarında zərərlərin ödənilməsi üçün hər hansı ehtiyat yaradılmamışdır.

***Vergi qanunvericiliyi.*** Azərbaycanın vergi, valyuta və gömrük qanunları müxtəlif şərhlərə və tez-tez baş verə bilən dəyişikliklərə məruz qalır. Rəhbərlik hesab edir ki, onun tərəfindən Şirkətin əməliyyatları və fəaliyyətinə tətbiq edilən müvafiq qanunvericiliyin şərhi düzgündür.

## 19. MALİYYƏ ALƏTLƏRİNİN ƏDALƏTLİ DƏYƏRİ

Ədalətli dəyər, məcburi satış və ya ləğv etmə halları istisna olmaqla, maraqlı tərəflər arasında cari əməliyyat zamanı maliyyə alətinin mübadilə edilə bildiyi məbləği əks etdirir və ən yaxşı olaraq aktiv bazar qiyməti ilə təsdiqlənir.

Maliyyə alətlərinin təxmin edilən ədalətli dəyəri Şirkət tərəfindən mövcud bazar məlumatlarından (əgər mövcud olarsa) və müvafiq qiymətləndirmə metodlarından istifadə etməklə müəyyən edilmişdir. Lakin, təxmin edilən ədalətli dəyərin müəyyən edilməsi üçün bazar məlumatlarını şərh edərkən peşəkar mülahizələr irəli sürmək tələb edilir. Azərbaycan Respublikasında inkişaf etməkdə olan bazar iqtisadiyyatına xas xüsusiyyətlər müşahidə olunmaqdadır, lakin iqtisadi şərtlər maliyyə bazarlarında aktivliyin həcmini məhdudlaşdırmaqda davam edir. Bazar qiymətləri köhnəlmiş ola bilər və ya aşağı qiymətlərlə satışın dəyərini əks etdirə bilər və bu səbəbdən maliyyə alətlərinin ədalətli dəyərini əks etdirməyə bilər. Maliyyə alətlərinin ədalətli dəyərini müəyyən edərkən Rəhbərlik bütün mövcud bazar məlumatlarından istifadə edir.

Rəhbərlik maliyyə alətlərini kateqoriyalara ayırarkən, ədalətli dəyər iearxiyasından istifadə edərək hesablamalar tətbiq edir. Əgər ədalətli dəyər ölçülməsi müşahidə edilən məlumatlardan istifadə edirsə və bu məlumatlar əhəmiyyətli düzəlişləri olunmasını tələb edirsə, o zaman həmin ölçülmə 3-cü dərəcəli ölçülmə hesab edilir. Bütünlükdə, qiymətləndirmənin əhəmiyyəti ədalətli dəyər ölçülməsinə qarşı dəyərləndirilir.

***Ədalətli dəyəri müəyyən edərkən istifadə edilən üsullar və ehtimallar.***

Ədalətli dəyər məcburi satış və ya ləğvetmə halları istisna olmaqla, maraqlı tərəflər arasında cari əməliyyat zamanı maliyyə alətinin mübadilə edilə bildiyi məbləği əks etdirir və ən yaxşı olaraq fəal bazar qiyməti ilə təsdiqlənir. Bazar qiymətləri mövcud olmadıqda, Şirkət qiymətləndirmə üsullarından istifadə etmişdir. Fəal bazar qiyməti olmayan dəyişkən faizli maliyyə alətlərinin ədalətli dəyəri təxminən onların balans dəyərinə bərabərdir. Fəal bazar qiyməti olmayan sabit faizli maliyyə alətlərinin ədalətli dəyəri analoji kredit riskinə və ödəmə müddətinə malik yeni alətlər üçün mövcud faiz dərəcələrini tətbiq etməklə diskont edilmiş gələcək pul vəsaitlərinin hərəkəti metoduna əsaslanır.



Сканировано с CamScanner

## 20. ƏLAQƏLİ TƏRƏFLƏRLƏ ƏMƏLİYYATLAR

MUBS 24 "Əlaqəli tərəflərlə bağlı qeydlər" standartının tələblərinə əsasən əlaqəli tərəflər və ya əlaqəli tərəflərlə əməliyyatlar aşağıdakılardan ibarətdir:

(a) Şirkətin birbaşa, dolayısı yolla və ya hər hansı bir üçüncü tərəf vasitəsilə nəzarət etdiyi, nəzarətində olduğu və ya bərabər nəzarət altında olduğu tərəflər (buraya ana şirkətlər, törəmə müəssisələr, eyni səviyyədə olan törəmə müəssisələr aiddir); Şirkətin fəaliyyətində marağı və bu fəaliyyətə əhəmiyyətli dərəcədə təsir göstərmək imkanı olan şəxslər; və Şirkətin fəaliyyətinə ortaq nəzarət həyata keçirən şəxslər;
(b) Asılı müəssisələr – Şirkət tərəfindən fəaliyyətinə əhəmiyyətli dərəcədətəsir göstərilə biləcək, lakin törəmə və ya birgə müəssisə olmayan tərəflər;
(c) Şirkətin tərəf kimi çıxış etdiyi birgə müəssisələr;
(ç) Şirkətin və ya onun əsas müəssisəsinin idarə heyətinin üzvləri
(d) (a) və ya (c) bəndlərində göstərilən şəxslərin yaxın ailə üzvləri;
(e) (ç) və ya (d) bəndlərində göstərilən şəxslər tərəfindən birbaşa və ya dolayısı yolla səsvermə hüquqlarının əhəmiyyətli hissəsini əlində cəmləşdirən nəzarətdə olan tərəflər, müəssisələr vəbirgə müəssisələr aiddir; və ya
(ə) İş müddəti bitdikdən sonra Şirkətin keçmiş işçiləri və ya Bankın əlaqəli olduğu şəxs tərəfindən alınacaq mükafatlar.

Əlaqəli tərəflər arasındakı münasibətləri nəzərə alarkən həmin münasibətlərin yalnız hüquqi formasına deyil, iqtisadi məzmununa da diqqət yetirilir.

## 21. HESABAT DÖVRÜNDƏN SONRA BAŞ VERMİŞ HADİSƏLƏR

31 Dekabr 2021 – ci tarixdən etibarən Auditorun rəyinin təqdim edilməsi tarixinədək təşkilatın fəaliyyəti ilə əlaqədar heç bir əhəmiyyətli hadisə və ya dəyişiklik baş verməmişdir.



Сканировано с CamScanner